Salam, Lidia, məktubun üçün minnətdaram. Mən sülh tərəfdarıyam. Sən də, mən də bilirəm ki, sülh nədir. Belə deyək, sülh bizi rifaha aparan yoldur. Kim sülh istəməz ki? Məncə hər kəs sülhə razıdır. ***Problem ona aparan yoldadır.***

Mən Azərbaycanımı çox sevirəm. Amma onu da anlayıram ki, bizim sülh yolumuz çox dolaşıqdır. Kəpənək effekti barədə eşidib-eşitmədiyini bilmirəm, qısaca deyim ki, kiçik addımların böyük effekt doğrultması. Mən inanıram biz nə vaxtsa sülhə nail olacayıq. Özümə inanıram. Öz üzərimə düşəni edəcəyimə. Sağlam sülh yaratmaq üçün iki tərəf də çalışmalıdır. Bilirsoniz necədir, artıq 30 il keçib, amma mənim soydaşlarım o dəhşəti, torpaqlarının tutlduğunu unuda bilmirlər. Ona görə yox ki, oradan kimsə çıxmalıdır. Ona görə ki, onların xatirələri və torpaqlarona verdiyi vədlər var. Amma xalqlarımızın bir yerdə firəvan yaşadıqlarını da unutmayaq, bu hər zaman olmayıb. Lakin göstərici odur ki, qığılcımlar olub. Empatiya yaşayıram sərhəddə hər iki tərəfdən ölüm xəbərini oxuyanda gözü yaşlı anaları, arzuları gerçəkləşməmiş insanları bilirsən mən gözüyaşlı anaya öz övladın qaytara bilmirəm və ya canını qoyacaq şəhidi geri qaytara bilmirəm. Səni və dostlarını heç bir tərəfi incitməyəcək **ƏDALƏTƏ** çağırıram. O ədalət ki, mənim soydaşlarım öz torpağının qoxusun alıb ölsün. Bilirsən neçə ahıl olub ölümə yaxın və hefyslənib, amma nə edək?! Axı o Qarabağa gələ bilmir.

Düşünmürəm ki, bizim sülhə qovuşmağımız utopiya deyil.. Biz yenə Doğma Qarabağımızda bir və məsud yaşaya bilərik. Bəzən istəklərimizə dərin yanaşmalı və inanmalıyıq.

Sülh əldə edib Qarabağımızda zincirli sərhədləri qıranadək

Hələlik. Gulsen